# Vətənpərvər, döyüşçü, alim Rzayev Salman Qədimalı oğlu

**S.Rzayev Gədəbəy rayonunun Qızıltorpaq (Dikdaş) kəndində 19 aprel 1949-cu ildə anadan olmuşdur. 1971-ci ildə Rusiyada, Vladiqafqazda Şimali Osetiya Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmişdir.**



Əmək fəaliyyətinə həmin universitetdə başlamışdır. 1974-cü ildə Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunun aspiranturasına daxil olub, Moskvada Molekulyar Elektronika ET İnstitutunda "Defektlərin inteqral mikrosxemlərin elektofiziki parametirlərinə təsiri" mövzusunda elmi tədqiqatlar aparmışdır. 1980-ci ildə namizədlik, 1992-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Onun elmi tədqiqat sahəsi yarımkeçiricilər fizikasının ən aktual problemi olan "Mikrosxemlərin etibarlığının və uzun ömürlüyünün artırılması" problemini və fizikanın fəlsəfi problemlərini əhatə edir. O, yarımkeçiricilər fizikasında "Defektlərin proton keçidlərdə elektron proseslərə təsiri" yeni elmi istiqamətin əsasını qoymuş və "Dislokasiyanın elektirik aktivliyi" kimi mühüm problemi həll etmişdi. S.Q.Rzayev inkişaf etdirdiyi elmi istiqamətdə aldığı nəticələri yarımkeçiricilər fizikasının mühüm probleminin həllinə yönəltmişdir. O, dislokasiyaların və aşkar topaların, elektrik aktivliyin əvvələr məlum olmayan aspektlərini öyrənmiş və yeni məlumatlar əsasında defektlərin yarımkeçiricilərdə yaratdığı dərin səviyyələrin elektron modelini qurmuş, p-n strukturların, dielektriklərin deşilmə gərginliyini aşkar topaların yükündən və ölçülərindən asılılığının düsturunu almış, dielektriklərdə qeyri-bircinsliyin üzərində mikroplazmanın yaranması üçün zəruri və kafi şərtləri müəyyənləşdirmiş, təklənmiş dislokasiyanın keçiriciliyində metal-dielektrik keçdiyini aşkar etmiş və onun mikromexanizminin modelini vermişdir. 110 elmi əsərin müəllifi olmuşdur, hazırladığı üsullara 5 müəlliflik şəhadətnaməsi və patent almışdır.

AMEA Fizika İnstitutunda 2003-cü ildən "Fizika elektronika" seminarının sədri olmuş, dissertant və aspirantlara "Fizikadan xüsusi kurslar" tədrisinə rəhbərlik etmişdir. Azərb. ET və Layihə-Axtarış Energetika İnstitutunun nəzdində dissertasiya Şurasının üzvü olmuşdur. 1993-cü ildən 1996-cı ilədək Respublikamızın prezidenti Heydər Əliyevin çağrışına cavab olaraq könüllü Azərbaycan ordusu sıralarında Ölkəmizin ərazi bütövlüyü uğurunda gedən döyüşlərdə aktiv iştirak etmişdir. 1993-cü ilin sonunda fizika-riyaziyyat elmləri doktoru Salman Rzayev əyninə hərbi libas geyinərək cəbhənin odlu nöqtələrindən biri olan Gədəbəyə yollanır. Baş leytenant rütbəsində hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsini daşısa da, əlində silah bütün döyüşlərdə həmişə ön cərgədə vuruşur. Salman müəllim döyüşlərdə göstərdiyi böyük şücaətə görə komandanlıq tərəfindən "Şah İsmayıl Xətai" Fəxri Fərmənına layiq görülür. 1996-cı ilin yayında ordudan təxris olan Salman müəllim yenidən Fizika İnstitutuna qayıdıb baş elmi işçi kimi fəaliyyətini davam etdirir. Eyni zamanda Azərbaycan Milli Ensiklopediyasında "Fizika, Riyaziyyat, Mexanika, Kosmos, Astronomiya" elmi redaksiya müdiri kimi də fəaliyyət göstərir. S.Q.Rzayev elmi nailiyyətlərinə və dəyərli ixtiralarına görə 2007-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı ilə təltif edilmişdir. Bir müddət də Azərbaycan Dövlət Aqrar Universitetində kafedra müdiri olaraq çalışır. 2010-cu ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə aqrar fizika və riyaziyyat kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru Salman Rzayev yüksək ixtisaslı kadrların hazırlanması sahəsində səmərəli pedaqoji fəaliyyətinə görə və universitetin 80 illik yubileyi münasibətilə Fəxri Fərmanla təltif edilmişdir.

Vətənpərvər və ziyalı alim Salman Qədimalı oğlu Rzayev 2011-ci ilin mart ayının 31 -də bu dünyaya gözlərini əbədi yumsa da, əməlləri və işıqlı xatirəsi onu tanıyanların və xalqımızın yaddaşında həmişəlik qalacaq.

**Sitarə BAĞIROVA**
**AMEA Fizika İnstitutunun aparıcı elmi işçisi, fizika üzrə fəlsəfə doktoru**

**Elm.- 2021- ci il.- 19 noyabr.- S. 11.**